

**VAQİF ƏLİYEV,**
Sumqayıt şəhər
İcra Hakimiyyətinin başçısı

# HEYDƏR ƏLİYEVİN VƏTƏNPƏRVƏRLİYİ MÜASİR GƏNCLİK ÜÇÜN ÖRNƏKDİR

Vətən deyəndə ilk növbədə vətəndaşı olduğumuz doğma Azərbaycanımızın müstəqil dövlət kimi varlığı, dövlətçiliyimizin hərtərəfli inkişafı, mövcud ictimai - siyasi durumu və əlbəttə ki, ölkənin tərəqqisi yolunda hər birimizin üzərimizə düşən vəzifələri düzgün dərk etməmizlə bağlı kompleks məsələlər başa düşülür.Vətən və vətəndaş arasındakı asılılıq sözsüz ki, bu məvhumların qarşılıqlı əlaqəsinin düzgün dərk edilməsinin, həmçinin hər bir vətəndaşın Vətən qarşısındakı mənəvi borcunun yerinə yetirilməsi üçün cəmiyyətdə gedən proseslərdə fəal iştirak etməsinə, sözdə deyil, real həyatda konkret fəaliyyətin daxili potensialdan səmərəli istifadə edilməsi istiqamətinə yönəldilməsi kimi vacib şərtləri səciyyələndirir. Məhz bu asılılıq başlıca olaraq cəmiyyətin fəal və aparıcı təbəqəsi olan gənclərin vətənpərvərlik tərbiyəsinin sistemli şəkildə həyata keçirilməsi üçün konseptual əsasların formalaşmasının vacibliyini diqtə edir. Bu baxımdan, vətənə sədaqət hisslərinin əsas mahiyyətinin açıqlanması, bu hissləri formalaşdıran aspektlərin təhlil edilməsi və biri-biri ilə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi vacib şərtlərdəndir.

Sirr deyil ki, hər bir vətəndaşın Vətən anlayışını düzgün dərk edərək, ona bütün varlığı ilə bağlı olması ilk növbədə həmin şəxsin öz mənəvi – əxlaqi keyfiyyətləri, şəxsiyyət kimi cəmiyyətdə qazandığı nüfuzu, ailədə, işdə, ictimai fəaliyyətdə əldə etdiyi müsbət göstəricələrlə köklü surətdə bağlıdır. Bir sözlə, əsl vətənpərvər olmaq üçün təkcə Vətəni sevmək yetərli deyil. Eyni zamanda mənsub olduğun xalqın əsrlər boyu formalaşdırdığı milli-mənəvi dəyərlərin qorunub saxlanması, milli dövlətçilik ənənələrinin inkişaf etdirilməsi, azərbaycançılıq ideyalarının təbliğ edilməsi, ümumbəşəri dəyərlərə inteqrasiya proseslərində milli ideologiyanın, milli şüurun, milli özünüdərkin formalaşması istiqamətində hər bir kəs öz sözünü deməlidir. Ən başlıcası isə Vətən qarşısında öz borcunu yerinə yetirmək istəyən hər bir vətəndaş cəmiyyətdə tutduğu mövqeyindən, vəzifəsindən, sosial vəziyyətindən, dini və siyasi mənsubiyyətindən asılı olmayaraq, Vətənə olan məhəbbətini konkret işlə sübuta yetirməli və ümummilli mənafeləri şəxsi mənafelərdən üstün tutmağı bacarmalıdır.

Vətənpərvərlik tərbiyəsi özünəməxsus xüsusiyyətləri özündə birləşdirdiyi üçün gənclərin bu yönümdə tərbiyəsində bir sıra aspektləri nəzərə almamaq mümkün deyil. Qeyd etmək lazımdır ki, əsrlər boyu yaranmış, Azərbaycan xalqının qəhrəmanlığını tərənnüm edən dastanların, əfsanələrin, poemaların, xalq mahnılarının, şifahi xalq yaradıcılığının və dövlətçilik ənənələrini əks etdirən tarixi sənədlərin, elmi-publisistik məqalələrin bu sahədə rolu olduqca böyükdür. Lakin tarix sübut edir ki, istənilən dövrdə hər hansı bir xalqın qəhrəmanlıq salnaməsini dahi şəxsiyyətlər, xalqı arxasınca apara bilən liderlər yazırlar. Məhz həmin şəxslər öz qəhrəmanlıqları, Vətənə sədaqət nümunələri və şəxsi əxlaqi keyfiyyətləri ilə xalqın qəlbində layiqli yerini tutmaqla yanaşı, eyni zamanda Vətənin tərəqqisi naminə uzaq perspektivi müəyyənləşdirən mürəkkəb yolda sanki bir mayak rolunu oynayırlar. Bir çox hallarda isə xalqların milli ideoloji təfəkkürü məhz bu qəhrəmanların həyat idealları üzərində formalaşır.

XX əsrin sonunda ikinci dəfə öz istiqlaliyyətinə nail olmuş, müstəqil dövlətçiliyini əldə etmiş Azərbaycan Respublikası ötən dövr ərzində dinamik sürətlə inkişaf edərək, dünya sivilizasiyasına inteqrasiya etmiş, demokratik, hüquqi, dünyəvi dövlət kimi beynəlxalq aləmdə öz layiqli yerini tuta bilmişdir. Ən yeni tariximizin mərhələli təhlili göstərir ki, ölkədə bütün sahələrdə aparılan demokratik islahatların nəticəsi Azərbaycanı sivil, sülhsevər və dinamik inkişaf yolu tutmuş bir dövlət kimi dünya ictimaiyyətinə tanıtmışdır. Əlbəttə ki, tarixi baxımdan qısa bir dövr ərzində əldə edilən uğurlar məhz Heydər Əliyev şəxsiyyətinin, onun çevik, uzaqgörən idarəçilik və dövlətçilik bacarığının, zəngin həyat təcrübəsinin sayəsində mümkün olmuşdur. Ömrünün böyük bir hissəsini Azərbaycan Respublikasının inkişafına, xalqımızın tərəqqisinə sərf etmiş Heydər Əliyevin fenomenal bir şəxsiyyət kimi ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra həyata keçirdiyi misilsiz işlər, uzaqgörənliklə apardığı konstruktiv siyasi xətt, ümumiyyətlə **Heydər Əliyevin vətənpərvərliyi müasir gənclik üçün örnəkdir**.

Dövlətçiliyə sədaqətin, Vətənə məhəbbətin və xalqa etibarlı zəmanətin nümunəsi kimi Heydər Əliyevin vətənpərvərlik ideallarının, özünəməxsus aspektlərlə zəngin olan siyasi məktəbinin təhlil edilərək gənc nəslə çatdırılması artıq dövrümüzün ən vacib tələblərindən biridir. Bu gün gənc nəsil Heydər Əliyev kimi fenomenal bir şəxsiyyətin həyat və iş təcrübəsini dərindən mənimsəməklə, öz gələcək perspektivlərini yüksək mənəvi – əxlaqi keyfiyyətlərə malik humanist, sədaqətlilik idealları üzərində qurmuş olarlar. Bu baxımdan Heydər Əliyevin əsl vətənpərvər kimi azərbaycançılıq ideyalarının ətraflı təhlilinə önəm verərək, məsələyə müxtəlif aspektlərdən yanaşmaq lazımdır. Özlüyündə üzvi şəkildə biri-birini tamamlayan kompleks fəaliyyət sahələrinin açıqlanması və bu fəaliyyətin kökündə duran əməli işin bilavasitə xalqın tərəqqisinə yönəlməsini konkret faktlarla ictimaiyyətə çatdırılması daha düzgün olardı. Belə olan halda təbii bir sual ortaya çıxır. «**Heydər Əliyev şəxsiyyətinin Vətənə sədaqət hisslərini formalaşdıran əsas cəhət hansıdır?**» Özünü daha qabarıq göstərən cəhət kimi ilk növbədə xalqın müstəqil, azad yaşamaq arzularının reallaşmasına yönələn məqsədyönlü siyasəti qeyd etmək vacibdir. 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə ölkə rəhbəriyinə qayıdışından sonra Heydər Əliyevin «**Heç kəsin şübhəsi olmasın ki, mən ömrümün qalan hissəsini Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə sərf edəcəyəm**» deməsi əsl vətənpərvərin Vətəninə olan məhəbbətinin nə qədər güclü olmasını sübut edir. Azərbaycanın müstəqilliyini istəməyən daxili və xarici düşmənlərimizə «**Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir, sarsılmazdır**» və «**...bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram**» deyərək, qətiyyətlə bəyan etməsi xalqın tərəqqisi yolunda öz canını belə qurban verməyə hazır olan alovlu vətənpərvərin millətinə sədaqətini göstərir. Digər tərəfdən xalqın yüksək amallara nail olması üçün maariflənməsi, savadlanması, fiziki, psixoloji, mənəvi və ideoloji cəhətdən yetkinləşməsi, sosial-iqtisadi inkişafı, milli təhlükəsizliyi sahəsində sistemli şəkildə həyata keçirilən fəaliyyətin əsas istiqamətləri də təhlil edilməlidir.

Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan xalqına göstərdiyi əvəzsiz xidmətlərin qayəsini təşkil edən əsl vətəndaşlıq mövqeyini açıqlayarkən, ilk növbədə xalqa həsr olunmuş şərəfli insan ömrünü tarixi baxımdan iki əsas mərhələyə bölmək olar. Bu baxımdan Sovetlər İttifaqının tərkibində müttəfiq respublika kimi yaşadığımız dövrü və nəhayət, hal-hazırda tarixi – obyektiv proseslərin bizə bəxş etdiyi müstəqillik dövrünü qeyd etmək olar.

Müasir dövrdə Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə əldə olunan nailiyyətlərə heç də bu günün prizmasından baxmaq düzgün olmazdı. Bəli, indiki şəraitdə yeni texnologiyaların, qlobal problemlərin yaratdığı təfəkkür formalarının, bazar iqtisadiyyatına keçidlə bağlı mövcud rəqabətin, beynəlxalq tələblərin diqtə etdiyi bir dövrdə qazanılan nailiyyətlərin böyük əksəriyyətinin təməli məhz Heydər Əliyev şəxsiyyətinin Sovetlər İttifaqı dövründə həyata keçirdiyi misilsiz işlərlə qoyulmuşdur. Təsadüfi deyildir ki, o dövrdə ölkədə yaradılmış güclü maddi-texniki və kadr potensialı bu gün müstəqil dövlət quruculuğu proseslərində Müstəqil Dövlətlər Birliyinin digər respublikalarından fərqli olaraq, əldə olunan sərvət kimi uğurla istifadə olunur. İstər elm, təhsil, mədəniyyət, incəsənət sahəsində, istər sənayedə, aqrar sahədə aparılan islahatlarda, istərsə də Azərbaycanın gələcək inkişafını təmin edəcək neft strategiyasının həyata keçirilməsində əsası 70-ci illərdə formalaşan güclü kadr potensialının, elmi-texniki təcrübənin rolu danılmazdır.

O dövrdə Heydər Əliyevin Azərbaycan xalqına hədsiz məhəbbətinin birinci amili kimi ölkənin inkişafını şərtləndirən elmin və təhsilin yüksəlişinə göstərdiyi xüsusi diqqət və qayğını qeyd etmək lazımdır. 70-ci illərdə xalqın təhsillənməsi üçün müxtəlif ali təhsil ocaqları, elmi-tədqiqat institutları yaradılmış, elm və texnika sahəsində tədqiqat işlərinin genişlənməsi üçün Elmlər Akademiyasının fəaliyyəti gücləndirilmişdir. Elmin və təhsilin sürətlə inkişaf etməsini göstə-

rən faktlar kimi, 1969-1982-ci illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700-ə qədər yeni məktəb binasının istifadəyə verilməsini, ali məktəblərin sayının 12-dən 17-yə, təhsil alan tələbələrin sayının isə 70 mindən 100 min nəfərə çatdırılmasını qeyd etmək olar. Xüsusilə də 1969-cu ildə azərbaycanlı gənclərin keçmiş Sovetlər İttifaqının qabaqcıl elm mərkəzlərinə və təhsil ocaqlarına göndərilməsi üçün 47 yer ayrılmışdısa, 80-ci illərin əvvəllərində artıq hər il 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi. Onların böyük əksəriyyətinin azərbaycanlı olması isə Heydər Əliyevin apardığı məqsədyönlü milli kadr siyasətinin tərkib hissəsi kimi yüksək qiymətləndirilməlidir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki,1982-ci ildə ali hərbi məktəblərə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı olmuşdur. Bu gün dünyanın inkişaf etmiş 30-dan çox ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gəncin, Azərbaycanın müxtəlif ali məktəblərində 50 xarici ölkədən 2000-dən çox tələbənin təhsil alması, təkcə müstəqillik əldə etdiyimiz 10 il ərzində təhsil işçilərinin əmək haqlarının 9 dəfə artırılması, ali məktəblərin sayının 17-dən 30-a çatması o dövrdə aparılan işlərin struktur, məzmun və kəmiyyət baxımından davamlı olmasına şərait yaradan uğurlar kimi qeyd edilməlidir. Məhz o dövrdə Azərbaycan elminin inkişafı sahəsində Heydər Əliyevin göstərdiyi səylər alimlərimizin potensialını respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni problemlərinin həllinə yönəltməklə yanaşı, milli kadrlarımızın, müstəqil elmi potensialın formalaşmasına zəmin yaratmışdır.

İkinci amil kimi xalqın rifah halının yüksəlməsinə və ölkənin sosial-iqtisadi inkişafına yönələn siyasəti xüsusilə qeyd etmək vacibdir. Tam qətiyyətlə demək olar ki, bu gün Azərbaycanın suverenliyi, iqtisadi müstəqilliyi, dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1982-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır. Məhz 70-ci illərdə sənayenin strukturunun təkmilləşdirilməsində, fabrik və zavodların istehsal gücünün genişləndirilməsində, radiotexnika, cihazqayırma, elektrotexnika, dəzgahqayırma və avtomobil sənayesi müəssisələrinin yaradılmasında, kənd təsərrüfatının mexanikləşdirilməsində, neft–qaz emalı, kimya, metallurgiya və dağ-mədən sənayesinin inkişaf etdirilməsində aparılan köklü islahatlar şəhər və rayonların kompleks inkişafına, təbii sərvətlərin və əmək ehtiyatlarının səmərəli istifadə edilməsinə, yeni iş yerlərinin açılmasına şərait yaratmaqla yanaşı, eyni zamanda ən yeni tariximizin müstəqillik dövründə ölkə iqtisadiyyatının dinamik inkişafına təkan verən əvəzsiz töhfə olmuşdur.1970-1982-ci illərdə ölkədə 213 yeni iri sənaye müəssisəsinin istismara verilməsi, 94 avtomatlaşdırılmış sistemin, 2519 mexanikləşdirilmiş, 1300 kompleks-mexanikləşdirilmiş və 310 avtomatlaşdırılmış axın xəttinin fəaliyyət göstərməsi məhz o dövrdə respublikanın müstəqil iqtisadiyyatının formalaşmasına əsaslı zəmin yaradırdı. Xüsusilə də Bakı Məişət Kondisionerləri zavodunun fəaliyyətə başlaması, məhz Heydər Əliyevin əvəzsiz xidmətinin nəticəsidir ki, bu gün də həmin sənaye obyekti elektrotexnika kimi perspektivli bir sahənin inkişaf etdirilməsində mühüm rol oynayır. O dövrdə SSRİ-nin digər regionları üçün nəzərdə tutulan Məişət Kondisionerləri zavodunun Azərbaycan paytaxtında yerləşdirilməsi Heydər Əliyevin bilavasitə səyi və qətiyyəti nəticəsində mümkün olmuşdur. Təkcə bu fakt Heydər Əliyevin hələ o dövrdə Azərbaycanın inkişaf perspektivini, iqtisadi müstəqilliyini necə uzaqgörənliklə düşünməsinə əyani sübutdur.



Üçüncü amil kimi ölkənin müstəqil enerji sisteminin yaradılması, Azərbaycanın elektrik enerjisi ilə təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü siyasət olmuşdur. Məhz o dövrdə respublikamızı digər dövlətlərdən asılı etməyən 5000 meqavatt gücə malik geniş enerji müəssisələri sisteminin, Mingəçevirdə hər birinin gücü 300 meqavatt olan 8 böyük enerji blokunun yaradılması, Kür su-elektrik stansiyasının inşa edilməsi, 1994-cü ildə tikintisi yenidən davam etdirilən Yenikənd su-elektrik stansiyasının inşasına başlanması bu sahədə görülən perspektivli işlərdəndir. Təsadüfi deyil ki, müstəqillik əldə etdikdən sonra ölkədə enerji ehtiyatlarının işlənməsi və səmərəli istifadəsi, xüsusilə də neft və qaz sənayesi sahəsində aparılan islahatlar, bu gün artıq Azərbaycanın sosial-iqtisadi inkişafında əsas məqsəd deyil, əhəmiyyətli vasitə hesab edilən neft strategiyasının uğurla həyata keçirilməsində, xam neftin və təbii qazın istər quruda, istərsə də dənizdən çıxarılmasında, emal olunmasında məhz 70-ci illərdə yaradılmış qüdrətli kadr potensialından, elmi-nəzəri təcrübədən və maddi-texniki bazadan uğurla istifadə olunur. Bir sözlə, Azərbaycanın müstəqil dövlət kimi sosial-iqtisadi inkişafını təmin edəcək neft strategiyası Heydər Əliyevin hələ 70-ci illərdən həyata keçirməyə başladığı məqsədyönlü siyasətin davamıdır.

Heç kəsə sirr deyil ki, müstəqil dövlətin əsas və ən başlıca atributlarından biri də ölkənin müdafiə qüdrətinin gücləndirilməsi, xalqın milli təhlükəsizliyinin təmin olunması üçün dövlət sərhədlərini, ərazi bütövlüyünü qorumaq iqtidarında olan güclü ordunun yaradılmasıdır. Bu baxımdan Heydər Əliyev vətənpərvərlik məktəbinin əsas istiqamətlərindən biri də milli ordu quruculuğu işinin həyata keçirilməsi, bu sahədə vacib olan milli hərbi kadrların hazırlanması olmuşdur. Bu gün artıq aparılan sülh siyasəti nəticəsində əldə olunan atəşkəs şəraitində Milli Ordumuzun günü-gündən güdrətlənməsində, milli zabit kadrlar hesabına sıralarının möhkəmləndirilməsində Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin xüsusi diqqət və qayğısı danılmazdır.Məhz Heydər Əliyevin hələ Sovetlər İttifaqı dövründə Azərbaycan Ordusunun gələcəyini düşünərək uzaq görənliklə atdığı addımlar, xüsusilə də milli zabit kadrlarının hazırlanması məqsədi ilə 70-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, SSRİ-nin müxtəlif şəhərlərində fəaliyyət göstərən ali hərbi məktəblərə azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi, müdafiə xarakterli mühəndis-texniki qurğuların inşa edilməsi və sərhəd zastavalarının möhkəmləndirilməsi bu gün ordu quruculuğu işlərində istifadə olunan potensialdır. Doğrudan da bu gun xalqımız fəxrlə Heydər Əliyevi Milli Ordumuzun memarı adlandırmaqda səhv etmir. İna-

nırıq ki, müstəqilliyimizin, suverenliyimizin keşiyində şərəflə dayanan Azərbaycanın Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi ilə işğal altında olan torpaqlarımıza da tam nəzarət edəcəkdir.

Heydər Əliyev şəxsiyyətinin Vətənə sədaqət hisslərini təhlil edərkən, sözsüz ki, onun milli-mənəvi dəyərlərimizə olan hədsiz məhəbbətini, xalqımızın əsrlər boyu formalaşan adət-ənənələrinə, dilimizə, dinimizə olan qayğısını qeyd etməmək mümkün deyil. Heydər Əliyev vətənpərvərlik məktəbinin əsas qayəsini məhz onun azərbaycan xalqının nəcib əxlaqi keyfiyyətlərinə olan dərin sevgisi, əsl azərbaycanlıya xas olan mərdlik, məğrurluq, qürur, qeyrət, namus və vicdan hisslərinin daim yüksəkdə tutulması, xalqımızın qədim tarixi və mədəni irsinə olan hörmətidir. Totalitar rejimin antimilli siyasətinə, kommunist partiyasının sərt ideoloji prinsiplərinə baxmayaraq, hələ Sovetlər İttifaqı dövründə Azərbaycana rəhbərlik edərkən, Heydər Əliyevin ən böyük xidmətlərindən biri də xalqımızın öz milli bayramlarını, el şənliklərini, dini mərasimləri qürurla qeyd etməsində, adət-ənənələrimizin, azərbaycançılığın, Azərbaycan dilinin qorunub saxlanmasına hərtərəfli şəraitin yaradılması olmuşdur.

Məlumdur ki, hər bir xalqın özünəməxsus xüsusiyyətlərini müəyyən edən başlıca amillərdən biri də onun dilidir. Məhz Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsi, onun dövlət dili kimi inkişaf etdirilməsi Heydər Əliyevin əsas məqsədlərindən biri olmuşdur. Bu baxımdan 2001-ci ilin iyun ayının 18-də imzalanmış «Dövlət dilinin tədbiqi işinin təkmilləşdirilməsi haqqında» fərman dilimizin dünya xalqlarının dilləri içərisində layiqli yer tutmasında mühüm rol oynayır. Beynəlxalq aləmə inteqrasiya proseslərində milli-mənəvi dəyərlərimizi sapdıra bilən, xüsusilə də gənclərimizin mənəvi-əxlaqi tərbiyəsinə mənfi təsir göstərən hallara qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə 2001-ci ilin avqust ayının 13-də verdiyi bəyanatla xalqı vətənpərvər olmağa çağıran Heydər Əliyev milli-mədəni irsimizə sadiq qaldığını, daim onun keşiyində durduğunu bir daha subuta yetirdi.

Heydər Əliyevin mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə göstərdiyi qayğı gərgin bir fəaliyyətin əsas tərkib hissəsini təşkil edir. Görkəmli mədəniyyət və incəsənət xadimlərinin, yazıçıların, şairlərin, bəstəkarların yubileylərinin keçirilməsi, onları yaradıcılığa həvəsləndirərək əsl vətəndaş tərbiyə olunmasına cəlb edilməsi, Nizami və Füzuli kimi dahilərin ildönümlərinin keçirilməsi, qəhrəmanlıq və vətənpərvərlik eposu olan «Kitabi – Dədə Qorqud» dastanının 1300 illiyinin qeyd edilməsi və bu kimi çoxsaylı işlər Heydər Əliyevin öz Vətəninin mədəniyyətinə, incəsənətinə olan qayğısını göstərir.

Müstəqil dövlətçilik ənənələrinin inkişaf etdirilməsi istiqamətində Heydər Əliyevin 1993-cü ildən başlayaraq, həyata keçirdiyi tədbirlər, xüsusilə də 1990-1992-ci illərdə ölkəni idarə edən səriştəsiz rəhbərlərin milli mənafelərimizə zidd siyasəti nəticəsində respublikada yaranmış özbaşınalığa, vətəndaş itaətsizliyinə son qoyulması, ictimai-siyasi sabitliyin yaradılması, qanunsuz silahlı birləşmələrin ləğv edilməsi istiqamətində görülən işlər əlbəttə ki, qədirbilən xalqımız tərəfindən yüksək qiymətləndirilir. İstər 1993-cü ilin iyununda baş verən Gəncə hadisələrində, istərsə də 1994-ci ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında Heydər Əliyevin atdığı qətiyyətli addımlar ölkəni dəhşətli bəlalardan xilas etməklə yanaşı, monolit Heydər – Xalq birliyinin nə qədər sarsılmaz olduğunu dünyaya bəyan etdi.



Xalqımızın tarixinə qanlı səhifələrdən biri kimi daxil olmuş 20 Yanvar faciəsi törədilərkən Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək Rusiyanın imperiya siyasətini, Sovetlər İttifaqının o dövrkü rəhbərliyini çəkinmədən ifşa edən, günahkarların cəzalanmasını tələb edən Heydər Əliyev öz hərəkəti ilə şəxsi həyatını təhlükə altında qoymasına baxmayaraq, əsl vətənpərvər azərbaycanlı ziyalısına xas olan məğrur simasını nümayiş etdirdi.

Əlbəttə ki, qeyd olunanlar Heydər Əliyevin varlığı ilə bağlı olduğu xalqının tərəqqisi yolunda həyata keçirdiyi misilsiz işlərin bir hissəsidir. Məhz bu işlərin ətraflı təhlil olunması və gənclərin vətənpərvərlik tərbiyəsində səmərəli istifadə edilməsi müstəqil dövlət quruculuğu yolunu tutmuş suveren Azərbaycanın gələcək inkişafının ideoloji əsaslarını təşkil etmiş olar.

Ümidvarıq ki, hər bir sağlam düşüncəli Azərbaycan gəncləri bu gün Vətən qarşısındakı mənəvi borcunu dərk edərək, müstəqil respublikamızın inkişafı naminə əməli fəaliyyətində məhz Heydər Əliyevin ideyalarının layiqli davamçıları olacaqlar.